Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Ruhumuzu gözəlləşdirən şair-Aslan Aslanov

Aslan Aslanovun 90 illik yubileyi münasibəti ilə
Respublika uşaq kitabxanaları üçün hazırlanmış
metodik vəsait

**Bakı – 2016**

Tərtibçi: **Aynurə Əliyeva**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**“Ruhumuzu gözəlləşdirən şair-Aslan Aslanov”, -**Aslan Aslanovun 90 illik yubileyi münasibəti ilə Respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait /tərt. ed. A. Əliyeva; red. və burax. məsul Ş.Qəmbərova; **F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

2016

## Tərtibçidən

Ziyalı timsalında el özünün zehni, mənəvi varlığının gerçəkliyini, öz ideallarının carçısını görür. Əsl ziyalılara həmişə ehtiram, qayğı bəsləyir, onlara güvənir. Müasir dünyada öz milli mövqeyini dərk etməkdə onlara hərəkətverici qüvvə kimi baxır. Ziyalı adını ləyaqətlə daşıyanlar isə elin etibarını, ümidini doğrultmağı müqəddəs borc sayırlar. Filosof–estetik, şair, içtimai xadim Aslan Məmməd oğlu Aslanov onların önündə olan şəxsiyyətlərdəndir. Aslan Aslanovun yaradıcılığı çoxşaxəlidi. Vətənin, xalqın, milli dəyərlərimizin, təbiət gözəlliklərinin, hətta gülün-çiçəyin belə tərənnümü özünə məxsus yer tutur. Sənətdə sehrli nə varsa, intuisiyanın gözlənilməz kəşflərindən doğur. Kimin intiusiyası laldırsa, o nə sənətin dilini bilər, nə sənət dilində yaradar. El dilinin saf şeiriyyətinə sahib olanlar poeziyasını bir poeziya kimi başqalarına çatdırırlar. Yalnız sözün duruluğunda nəcib duyğuların işığı könülü oxşayır. Sözdə hisslərinin, fikrin vəznini artırmaq istəyənlərin meyarı-təbii sadəlikdir. Elə burada şairin sözünün sehrini, əfsunlayıcı təsirinin sirlərini görürük.

Nə mənası quru yerdə ad-sanın,
Ey insanlar, gül-çicəyə yaslanın.
İlk şüarı, al bayrağı Aslanın
Gözəllikdir, gözəllikdir, gözəllikdir!

## Ruhumuzu gözəlləşdirən şair-Aslan Aslanov

Aslan Aslanov şairlər vətəni Qazax mahalında, 1926-cı il yanvarın 1-də Ağstafada anadan olub. Atası Məmməd kişi, anası Zeynəb xanım el yaradıcılığının, sazın-sözün vurğunu idilər. Evlərində tez-tez aşıq məclisləri olardı. A. Aslanov uşaqlıqdan onlara heyranlıqla qulaq asardı. Hələ orta məktəbdə oxuyarkən qələmini şeirdə, nəsrdə sınamışdı. A. Aslanov Ağstafa dəmiryol orta məktəbini bitirdikdən sonra, ADU-nun fizika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Fəlsəfə üzrə namizədlik dissertasiyası müdafiə etmiş (1958), dosent vəzifəsinə təyin olunmuşdur. M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru (1977-1987) vəzifəsində işləmişdir. Beynəlxalq elmi konqreslərdə İsveçrədə (1968), Almaniyada (1970), Ruminiyada (1972), və Moskvada (1979) məruzə ilə çixiş etmişdir. Ingiltərədə və Almaniyada Federativ Respublikasında (1978-1979) keçirilən sovet elmləri günlərinin iştirakçisi olmuşdur. Aslan Aslanovun estetika sahəsində dərin elmi axtarışları onu bu fənnin tanınmış tədqiqatçıları sırasına çıxardı. Xüsusən “İncəsənət və tərbiyə” (1967) kitabı əsərləri içərisində seçilirdi. A.Aslanovun bu kitab əsasında yazdığı doktorluq dissertasiyası fəlsəfi içtimaiyyətin yüksək elmi qiymətini qazanmışdır. A. Aslanov 1961-ci ildən universitetdə yaradılmış estetika-etika kafedrasına müdir seçilmişdir. Aslan müəllimin xeyirxah fəaliyyəti sayəsində kafedrada estetikadan, etikadan bir çox alimlər yetişdirilib. Bütün bu fəaliyyəti onu elmi, bədii yaradıcılıqdan ayırmamışdır. Bu gün də A. Aslanovun “Bənövşələr”, “Nəğməli günlərim” kitabları oxucular tərəfindən daima sevilərək oxunur.






**Görkəmli şəxsiyyətlər Aslan Aslanov haqqında**

1. A.Aslanov mükəmməl təhsil görmüş görkəmli filosoflarımızdandır. Şairin kamil ziyalı təbiəti onun xalq ruhunda yazdığı şeirlərində daha zərif, daha təbii duyğuların tərənnümünə kömək etmişdir.

2. A. Aslanovun lirik qəhrəmanı romantik olduğu qədər də real şəxsiyyətdir. O, təbiətin, həyatın konkret mənzərələrinə, konkret anlarına nüfuz etməyi, onları həssas qəlblə duymağı bacarır.

İlyas Əfəndiyev
Xalq yazıçısı

3. Aslan Aslanov yaddaqalan, aydın, səmimi bir dillə uzun ömür yolunda görüb götürdüklərini oxucu ilə bölüşür.

Çingiz Əlioğlu.
Şair

4. Gənc yaradıcı nəslin təlim-tərbiyəsində, həmçinin çoxsaylı alimlər dəstəsinin yetişib formalaşmasında A. Aslanovun xidmətləri çox böyükdür.

Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyəti.

Aslan Aslanovun yaradıcılığını oxuculara tanıtmaq, şair qələmini onlara sevdirmək və ən əsası da, bütövlükdə məktəblilərə oxu vərdişi aşılamaq üçün kitabxanalarda bir sıra tədbirlər görülür.
Bu tədbirlərdən kitab sərgisi, oxucu konfransı, şeir və rəsm müsabiqəsi, kitab müzakirəsi, ədəbi-bədii və digər tədbirləri misal göstərmək olar. Belə tədbirlərdən biri də, kitab sərgisidir. Kitab səgisi

yazıçını oxuculara sevdirmək, onun əsərlərini tanıtmaq məqsədi daşıyır. Sərgi müxtəlif başlıqlarla, “Aslan Aslanov - 90”, **“Gəldim ki, boylanım nur bulaqlara”** “Ruhumuzu gözəlləşdirən şair-Aslan Aslanov”, “Təbiət gözəlliklərini ən gözəl tərənnüm edən şair-Aslan Aslanov”, “Dili nəğməli şair”, “Nəğməli günlərim”, “Vətən! Sənsən dünyada eşqim, arzum, həyatım” və s. verilir. Bundan başqa şairin rəsmlərindən ibarət Foto-stent, “Nəğməli günlərim”, “Bənövşələr” və digər kitabları sərgidə yer almaqdadır. Eyni zamanda sərgidə Aslan Aslanovun haqqında dövrü mətbuatda yer alan materiallar nümayiş olunur. Görkəmli insanların, ədiblərin yazıçı haqqında söylədikləri kəlamlar sərgidə öz yerini alır. Sərginin sonunda müxtəlif şeir parçaları verilir.

Azərbaycan dili anamın dili,
Nənəmin sevdiyi xananın dili,
Böyük Füzulinin Vaqif, Vurğunun,
Elmimin, komamın, obamın dili!

Şeir müsabiqəsinin keçirilməsi üçün əvvəlcədən məktəblilər sözü gedən şairin əsərləri ilə tanış olurlar. Öz şeir seçimlərini edirlər və müəyyən vaxt ərzində hazırlaşdıqdan sonra elan olunmuş gündə kitabxanaya gələrək tədbirdə iştirak edirlər. Tədbirdə təşkil edilmiş sərgidə şairin şeirlərindən ibarət olan kitablar, şeir başlıqları və eləcə də, şair haqqında yazılmış müxtəlif ədib və yazarların kitab və dövrü və mətbuat səhifələri nümayiş olunur. Kitabxanaçı səhnəyə gələrək, qonaqları salamlayır və iştirakçılara uğurlar arzulayır. Daha sonra isə tədbir iştirakçılarına Aslan Aslanovun həyat və yaradıcılığı haqqında məlumat verir. Tədbirdə şagirdlərin əsasən daha çox üstünlük verdiyi mövzular vətən, dil, məmləkətimizlə bağlı mövzulardır. Müsabiqədə şairin bir neçə şeiri səslənir. Beləlklə, tədbir başlanır, aparıcı səhnəyə gələrək bir-bir iştirakçıların adlarını və söyləyəcəkləri şeirin adlarını tamaşaçılara və münsiflərə açıqlayır.

*İlk iştirakiçı səhnəyə gələrək şeiri deməyə başlayır.*

İthaf.

Ömrümün ən əziz,  ən xoş baharı
Ey gülüm, gülşənim,  Azərbaycanım,
Mən səndən dünyada düşmərəm ayrı
Nə qədər canımda mənim var canım.
Qurban ağacının hər yarpağına,
Qurban güllərinə, çiçəklərinə.
Qurban al günəşli nur torpağına,
Qurban  fırtınalı  küləklərinə.
Qurban göylərində saysız sayrışan
Sonsuz ulduzların zər naxışına.
Pərişan Arazı Kürə qarışan,
Ana torpağının hər qarışına.
Qurban qoynundakı obanın, elin
Qələbə əzmli bayraqlarına,
Kəhraba zəminin, bəyaz çölünün,
İşıqlı Bakının çıraqlarına.
Qurban qurtarmayan nağıllarının
Min bir arzusuna, diləklərinə.
Qurban o sahilin oğullarının
“Vətən! Vətən!” deyən ürəklərinə .
Qurban Vaqiflərin, Nizamilərin
Fikir dünyasına qəlb ağrısına.
Qurban sazındakı ötən simlərin
“Kərəmi”, “Divani”, “Koroğlu” suna
Qurban Nəsiminin bir vaxt bir zaman
Çəkdiyi əzaba, min işgəncəyə.
Nizami yurdundan göyə ucalan
Hüsnü nur cəlallı yeni Gəncəyə!

Qurban tənəyində bir salxımının
Öz alov, öz atəş, öz odluğuna.
Alqış! Qədir bilən doğma xalqımın
Böyük dostluğuna, azadlığına!

*Alqış sədaları altında iştirakçı öz növbəsində yerini ikinci iştirakçıya verır. İştirakçı "Azərbaycan" adlı şeirini söyləmək üçün səhnəyə yaxınlaşır.*

Mənim əziz, doğma səmam,
doğma elim,
doğma anam,
doğma dilim,
doğma gözüm,
doğma sözüm,
Bir dənədir Azərbaycan!
Güc alıram kəlmə-kəlmə,
Cümlə-cümlə mən bu sözün
dünyasından!
Azərbaycan –canımızdır,
qanımızdır,
adımızdır,
sanımızdır.
Qorqudumuz, Nizamimiz,
Füzulimiz, Nəsimimiz,
Vaqifimiz, Vurğunumuz,
Üzeyirimiz, Bülbülümüz,
Əslimiz, nəslimiz,
Bizim bütün hamımızdır!
Yenilməyən qüdrətimiz,
Şərəfimiz, şöhrətimiz,
Sərvətimiz, dövlətimiz,

Dost xalqlara,
Millətlərə hörmətimiz,
Bir kəlmədir -Azərbaycan !
Yad tonqalı qalayanlar,
Pisi pisə calayanlar,
Təzə "meydan sulayanlar”
Bata bilməz bu kəlmənin
Bir hərfinə!
Əsirlərlə
Heyran qalmış
Yad da, dost da
Azərbaycan məfhumunun
Gur sözünə, gur hərfinə!
Azərbaycan deyəndə, ”can”
Eşidirik nənələrdən
Azərbaycan! Səsin gəlir
Əsrlərdən, sənələrdən!
Azərbaycan! Sabahımız
Bu günümüz səninlədir.
Bizim şanlı pənahımız
səninlədir!
Azərbaycan! Ətrin gəlir.
hər gülümün
yarpağından,
Elin-oban ayrılmazdır.
Böyük vətən torpağından!

Şairin qələmində yurd, el-obamız, bir bənövşə belə daha başqadı, gözəl və əvəz olunmazdır.

Bənövşələr, bənövşələr.
Qurban bükük boynunuza .
Üşüyürsüz, qaçın, gəlin
Bizim isti qoynumuza.

*Daha sonra aparıcı üçüncü iştirakçını səhnəyə dəvət edir. İştirakçı səhnəyə gələrək "Mənim anam" şeirini deməyə başlayır.*

Mənə dağdan vüqar almış,
Neçə-neçə nübar almış,
Başım üstə layla çalmış
Mənim anam, mənim anam.

Qucağında bəslər məni,
Görməz duman-sislər məni.
Ülviyyətə səslər məni
Mənim anam, mənim anam.

Saf eşqimin aynasıdır,
Həyatımın mənasıdır,
Anaların anasıdır
Mənim anam, mənim anam.

Baharımdır, gülşənimdir,
Hara getsəm həmdəmimdir,
Əziz, doğma Vətənimdir
Mənim anam, mənim anam.

*Aparıcı iştirakçıya təşəkkürünü bildirib, səhnəyə növbəti iştirakçını dəvət edir. İştirakçı "İlk müəllimim"şeirini qiraətlli şəkildə ifa etməyə başlayır.*

Hara getsəm, mənim ilk müəllimim,
Əziz adın bir an düşməz dilimdən .
"Ana", "Vətən" kəlməsini ilk dəfə

Yazdırmısan sən tutaraq əllərimdən
Dərs deyərək çəkmisən
Zəhmətimi bahar, qış,
O gümüşü saçların
Bəlkə ondan ağarmış?
Xəyalımdan çıxmaz bir an nəzərin,
Üstümdədir sanki yenə gözlərin,
Geniş həyat yollarında hər dəfə
Qollarıma qüvvət vermiş sözlərin.
Dərs deyərək çəkmisən
Zəhmətimi bahar, qış,
O gümüşü saçların
Bəlkə ondan ağarmış?
Neçə məktəb qurtarsam da əgər mən,
Müəllimim yenə sənsən, yenə sən.
“Ata” deyə çəkəcəyəm adını
Yaşım ötsə, saçıma da düşsə dən.
Dərs deyərək çəkmisən
Zəhmətimi bahar, qış
O gümüşü saçların
Bəlkə ondan ağarmış?

*Sonda aparıcı səhnəyə “Lalələr” adlı şeiri demək üçün sonuncu iştirakçını çağırır.*

Yayın ortasında Gəncə çölündə
Çıxıblar yenə də dizə lalələr.
Qıpqırmızı şehli köynəklərini
Səpirlər dərəyə, düzə lalələr.

Xəyalımdan nələr gəlib nə keçər,

Yaz gələr ellərə durnalar köçər.
Bulaqlar-samavar, ağ daşlar–şəkər
Bənzəyir çəməndə közə lalələr.

Meylim üzünüzdə qara xaldadır,
Aslanın əlacı ilk vüsaldadır,
Nə vaxtdır Bakımın gözü yoldadır,
Bir qonaq gələsiz bizə, lalələr!

Tədbirin sonunda şeiri daha gözəl, qiraətli şəkildə deyən oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır. Aslan Aslanov öz yaradıcılığında körpələri, uşaqları da unutmamış, öz şeir töhfəsi ilə onları sevindirmişdir. Bunu nəzərə alaraq, şeir müsabiqəsinin ikinci hissəsində azyaşlı uşaqlarlara yer verilir. Müsabiqə zamanı "Qış", "Düşərgəmiz", "Köhlən atım", "Dəniz", "Sənin deyilmi", "Niyə" və s. şeirlərini uşaqlar qiraətli şəkildə söyləyirlər.

*İlk olaraq səhnəyə birinci iştirakçı gələrək "Dəniz" şeirini deyir.*

Dəniz, dəniz, göy dəniz,
Hava təmiz, göy təmiz.
Narın qumlar üstündə
Əks olunur kölgəmiz.
Dalğaların sərindir, sərindir;

Dəniz, dəniz, göy dəniz,
Çox sevirik səni biz,
Çimdikcə qucağında
Bərkiyir bədənimiz.
Dalğaların sərindir, sərindir;
Çox üzmərik dərindir, dərindir.

Dəniz, dəniz, göy dəniz.
Hava təmiz, göy təmiz.
İndi bizi gözləyir
Pioner düşərgəmiz.
Dalğaların sərindir, sərindir;
Çox üzmərik dərindir, dərindir.

*İkinci iştirakçı səhnəyə yaxınlaşaraq "Sənin deyilmi?" şeirini deməyə başlayır.*

Yarpızlı arxlar,
Sərin bulaqlar.
Meyvəli bağlar
Sənin deyilmi?

Quşlu budaqlar,
Zirvəli dağlar,
Ulduz oğlanlar
Sənin deyilmi?

Qövsü qüzehlər,
Yağışlı mehlər,
Gül üstə şehlər
Sənin deyilmi?

Cüyürlü çöllər,
Sonalı göllər.
Bu gözəl ellər
Sənin deyilmi?

Yaşıl talalar,
Qədim qalalar,
Gur şəlalələr
Sənin deyilmi?

Gülən səhərlər,
Kəndlər, şəhərlər,
Araz, Kür, Xəzər
Sənin deyilmi?

Ey mənim gülüm,
Ey şirin dilim,
Bu ömrüm, günüm
Sənin deyilmi?

Daha sonra münsiflər heyəti iştirakçıları müxtəlif ballarla qiymətləndirib, kitab hədiyyə edir.

Kitabxanaçı az yaşlı oxucularla nağıl otağında şair A. Aslanovun həyat və yaradıcılığı ilə bağlı görüş keçirir. O, Aslan Aslanovun yaradıcılığı ilə qısa tanışlıqdan sonra onun "Niyə" şeirini ucadan və aydın şəkildə oxumağa başlayır və bu şeirlə bağlı onların düşüncələri ilə tanış olur.

*Uşaqlar, şairin sizlərə ünvanladığı suallara cavab verə bilərsizmi?*

Kitabxanaçı: Göydə quşlar uçur niyə?
Bağda güllər açır niyə?
Çöldə ceyran qaçır yenə?
Kim söyləyər cavabını?

I Uşaq: Quşların qanadları olduğu üçün uça bilirlər. Güllər isə, gözəllik yaratmaq üşün açırlar.Çöldə vəhşi heyvanlar onu yeməsin deyə ceyran qaçmağı bacarır və hər üçü bununla təbiətə gözəllik verir.

Kitabxanaçı: Yağış göydən yağır niyə?

Sel sədləri yıxır niyə?
Çay dənizə axır niyə?
Kim söyləyər cavabını?

II Uşaq:Yağış buludlardan süzülüb gəlir.Buludlar göy üzünün mavi xalısıdır. Güclü gələn selin qarşısında səd aciz qalır. Çaylar öz başlanğıcını dənizdən götürür. Axarı da dənizə tökülür.

Kitabxanaçı: Domna peçi yanır niyə?
Zəmi dalğalanır niyə?
İgidlər tanınır niyə?
Kim söyləyər cavabını?

III Uşaq: Domna peçləri soyuq havalarda insanları qızdırmaq üçün yandırılır. Küləyin xəfif nəfəsi zərif zəmiləri dalğalandırır.İgidlərimiz öz məharət və şücaəti ilə ad qazanıb tanınır.

Kitabxanaçı: Fəhlə, kəndli dostdur niyə?
Ölkəmizdə yazdır niyə?
Düşmənlərə yasdır niyə?
Kim söyləyər cavabını?

IV Uşaq: Fəhlə və kəndli vətən üçün, xalq üçün daim əl-ələ işləyər. Ölkəmiz, yurdumuz hər an çiçəklənməkdədir. Sanki vətənimiz təbiətin həmişə yaz fəslini yaşayır. Yəni ölkəmizdə daim əmin-amanlıq hökm sürür. Vətənimizin igid oğulları öz qəhrəmanlıqları ilə düşməni məhv edər, aman verməz. Düşmən onların bu igidlikləri qarşısında daim yas tutar.

Şairin yaradıcılığını oxuculara çatdırmaq və sevdirmək məqdsədilə keçirilən tədbirlərdən biri də **Ədəbi-bədii gecə**dir. Şairin ədəbi-bədii gecəsi hər kəs tərəfindən rəğbət və maraqla qarşılanır. Gecəni rəngarəng edən niyanslardan biri də sərgidir. “Nəğməli günlərim” başlığı adı altında sərgi qurulur. Sərgiyə şairin “Qızlar və

Bənövşələr", "Nəğməli günlərim" və s. digər kitabları qoyulur. Bu kitablarla yanaşı şairin haqqında yazılmış digər ədiblərimizin kitab və yazı materialları, A. Aslanov haqqında deyilmiş sitatlar və dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası sərginin əsasını təşkil etməkdədir. Sərgidə müxtəlif adlar "Təbiilik olan yerdə", "Kağız yazın a qızlar, Yada salın siz məni", "...Yerimdə bir ömür açacaq çiçək, Dünya bir çiçək gözəlləşəcək", "Bir balıqçı babayam","Gəldim ki, boylanım nur bulaqlara", " Nəğməsiz günlərim tez payızlaşan eşqimin tökülən xəzəllərimdir" və s. başlıqları ilə yerləşdirilir. Bununla yanaşı şairin rəsmləri divardan asılmaqdadır. Tədbirə ədiblər, şair və yazıçılar, şairin ailə üzvləri, müəllimlər və şagirdlər və s. müxtəlif adda qonaqlar dəvət olunur. A. Aslanovun yaradıcılığı , onun qələminin sehri qonaqları valeh edir və xoş ovqat, maraqlı təsir bağışlayır. Tədbir qeyri-adi bir açılışla, Aslan Aslanovun böyük ustalıqla sözlərini yazdığı və istedadlı bəstəkarımız Telman Hacıyevin musiqisini bəstələdiyi "Lalələr" mahnısı möhtəşəm bir ifa ilə, dahi sənətkar Rəşid Behbudovun ifasında musiqi sədaları altında başlanır.

*İlk olaraq səhnəyə aparıcılar daxil olur.*

**I Aparıcı:** Dəyərli qonaqlar, bu gün filosof-estetik, şair, içtimai şair, içtimai xadim Aslan Məmməd oğlu Aslanovun xatirə gecəsinə yığışmışıq. Şairin nəfəsindən doğulub, qələminə süzülən nəğməli poeziya gecəsində xoş gördük. Sizləri şairin yaradıcılığına məxsus incə lirizm ilə cilalanmış şeirlərindən biri ilə salamlamaq istərdim.

Gəldim ki, boylanım nur bulaqlara,
Görüm qocalmışam, qocalmamışam .
Baxım qürur dolu yaşıl dağlara,
Görüm ucalmışam, ucalmamışam.

**I Aparıcı:** İstedadlı şair A. Aslanovun poeziyasında məhz təbiətin özündən, dumanlı dağlardan meşələrdən, səhər-səhər kirimişcə puçurlayan ağaclardan, narın-narın yağan yağışlardan, mavi göyləri əks sulardan, dan yerinin ilk şəfəqlərilə işıqlanan şumlardan,

otlaqlardan və insan qəlbinin incə çırpıntılarından gələn təravətli duyğular hiss edirsən. Şair təbiəti, insanı həssaslıqla duyub ifadə etməyi bacarır. O, heç zaman mədhiyyəçilik etmir. Sadəlövh heyranlığına aludə olmur. O, təbiəti həssas bir rəssam kimi duyur:

Keçdi gecə, ay dolandı, səma aydın, doğdu ülkər,
Əsdi külək güzgü suya yarpaq atdı səhər-səhər.
Silkindilər ağ ördəklər, göy göllərdə üzdülər, bax,
Ala gözlü nazlı qızlar saçlarına çəkdi daraq.

**II Aparıcı:**Onun əlvan boyalarla təsvir etdiyi təbiət mənzərələrində insan nəfəsi, zərif insan hisləri kövrək bir aydınlıqla, bəzən həsrətlə bəzən nisgillə duyulur. Şair, bütün ömrünü-gününü bəzən sisli-dumanlı, bəzən nurlu-günəşli meşələrə bağlamış meşəbəyiyə müraciətlə deyir:

Meşəbəyi, qəm eyləmə,
Az qalıbdır, gələr bahar.
Göy dağların coşar yenə
Sinəsindən sellər, sular.

**I Aparıcı:**Həqiqi poeziya insanın, təbiətin gözəlliyini dərindən duymaqdır, sadəcə mədhiyyə oxumaq deyil! Onun vətən sevgisi, bu vətənin torpağına-daşına, güllərinə, çiçəklərinə, zəmilərinə və eləcə də insanlarına təbii bağlılığında, necə deyərlər, onlarla "can bir qəlbdə" olmasındadır. O, bu hissi həmişə təbii detallarla, təravətli cizgilərlə tərənnüm edir. Aslan Aslanovun poeziyasında əfsunlu Azərbaycan xalq poeziyasının, Aşıq Ələsgər poeziyasının məftunedici ruhu duyulur:

Maral dağda mələr gedər,
Ürəyində nələr gedər,
Ay qız, gənclik gələr gedər,
Qoy dolanım mən başına.

**II Aparıcı:** Vətən dağları-çiçəkləri lap qədimdən bəri həmişə şairlərimizin ilham mənbəyi olmuşdur və yazılan bu saysız-hesabsız şeirlərdən ancaq eləəri yaşamışdır ki, onlarda şairin təzə, təravətli bir ruhu, avazı hiss olunsun. Məsələn: S.Vurğunun "Dağlar" şeiri kimi.

Bu qoşmada dağlar sanki şairin ruhu ilə canlanıb, onun "düz ilqarlı" bir həmdəminə çevrilib. Sadə bir həqiqət var: həqiqi poeziya, ayaq tutub gedən sözçülüyə, mədhiyyəçiliyə, konyukturaya düşməndir! Bəzi nəzmçilər həqiqi şairlərdən çox olur... Aslan Aslanov sözün əsl mənasında şairdir. Onun poetik dastanları təbii və canlıdır. Ürəyə təsir eləyəndir. Sözçülükdən uzaqdır. Onun poetik müşahidələri də təbii və canlıdır. Gəncliyində yazdığı "Bənövşə" şeirinə nəzər salaq:

Ay dolanır, doğur ülkər,
Yavaş-yavaş dan sökülür,
Bir maral qız səhər-səhər
Sezər səni, ay bənövşə,
Üzər səni, ay bənövşə.

**I Aparıcı**: A. Aslanovun lirik qəhrəmanı romantik olduğu qədər də real şəxsiyyətdir. O, təbiətin, həyatın konkret mənzərələrinə, konkret anlarına nüfuz etməyi, onları həssas qəlblə duymağı bacarır.Yaz vaxtı Gəncə çöllərini bürüyən lalələr, dağda mələyib keçən maral "göy üzündə büsatını açan qövsü-qüzeh", " üstündə şeh damlası olan gülün dəstəsi" real olduqları qədər də lirik-romantik təsirə malikdirlər. Bu lirik qəhrəmanın duyğularında qəribə bir şəffaflıq var.

Önümdə bir dəstə gül
Üstündə şeh damcısı
Kirpiyimdə parladı
Sevincimdən göz yaşı.
Səhər-səhər yaz günü
Açıq oldu pəncərəm.
Kim qoymuşdu bu gülü
Şüşəbəndə, ah görən?..

**II Aparıcı:** Təbiilik, zərif və sadəlik, aydınlıq, təbiətə nüfuz etmək həssaslığı Aslan Aslanovun şeirinin gözəl xüsusiyyətlərindəndir. Onun dilində xalq dilindən gələn bir şirinlik var. Onda ürəyə yatmayan süni ifadəyə, içi boş təbirlərə rast gəlmək çətindir.

Azərbaycan dili anamın dili,
Nənəmin sevdiyi xananın dili,
Böyük Füzulinin, Vaqif, Vurğunun,

Elimin, obamın, komamın dili.
**I Aparıcı:** Əgər bütün lalələr yığılsaydı bir yerə,
Sahilləri görünməz qızıl ümman olardı.
Dağlar-onun dalğası, göylər –onun aynası,
Hər dağ üstə ağ bulud bir ərməğan olardı.

**II aparıcı:** Müəllifin şeirli anları onun nəğməli günləridir. Bu o anlardır ki, A. Aslanov "şair libası"geyir, daxili aləminə dalır. Dünyaya şair nəzəri ilə baxır. A. Aslanovun şeirlərinin bir qismi nəğmə mətnləri kimi istifadə olunmuş, ən populyar mahnıların sözləri olmaqla müğənnilərimizin repertuarında yer tutmuşdur. "Qoy dolanım mən başına" 1944-cü ildən, "Neftçi qız" 1951-ci ildən, "Küsüb getdi" 1952- ci ildən, "Mən ki səni sevirəm" 1953- cü ildən, "Yasəməndən" 1957- ci ildən, "Mənim anam" 1958-ci ildən, "Yolunu gözləyirəm" 1960- cı ildən "Lalələr", eləcə də başqaları indiyə qədər təzə-tər mahnılar kimi səslənir.

**I Aparıcı**: Bunlar şairin nəğməli günlərinin nəğmələridir. A. Aslanov son zamanlarda (1984-cü illərdə) "Nəğməsiz nəğməli günlərim" adlı bir şeir də yazmışdır. Elə bil ki, şair bu şeirlə öz poetik həyatına nəzər salır, nəğmələrini ömrünün şən günləri və illəri, arzusunun quş qanadları adlandırır, nəğməsiz və nəğməli günlərini üz-üzə qoyub deyir:

Nəğməsiz günlərim tez payızlaşan
Eşqimin tökülən xəzəlləridir.
Nəğməli günlərim hey yaşıllaşan
Barlı bağçaların tər gülləridir.

**II Aparıcı:** Yeri gəlmişkən deyək ki, A. Aslanovun şeirlərində həyata, təbiətə əksikliklər birliyi kimi baxışın poetik ifadəsinə tez-tez rast gəlirik. Kitabdakı şeirlər formasına görə də, məna-məzmununa görə də müxtəlif və rəngarəngdir. Burada beş hecalıdan tutmuş onbeş hecalıya qədər şeir nümunələri vardır. Müasir lirik şeirlər, rübai və təkbəndlər, uşaqlar üçün şeirlər də var.

Ay dolanar, doğar ülkər,
Yavaş- yavaş dan sökülər,

Bir maral qız səhər-səhər
Sezər səni ay bənövşə,
Üzər səni, ay bənövşə.

Çıxanda göl qırağına,
Sona baxmaz ayağına,
Ləkə salar yanağına
Gəzər səni, ay bənövşə,
Əzər səni, ay bənövşə.

**I Aparıcı:** Şairin bəzi şeirləri şairin bütün yaradıcılığına məxsus incə lirizm ilə cilalanmışdır. A. Aslanovun şeirlərində yer tapan bir sıra orijinal poetik ifadələr bu lirizmi daha da güclü edir, onun təsirini artırır: "Bulaqlar – samovar, ağ daşlar- şəkər", "Göyün hər qatında, hər varağında, Kainat insana yer irahlayır", " Külək güzgü suya yarpaq atdı...", "Payız bir yarpaq da xəzəlləşəcək", "Dünya bir çiçək də gözəlləşəcək", "Gəlin küknarların duvağı tül-tül" və s.

Payız meşəsində məhzun ağaclar
Yağışda çimməkçün çılpaqlanıblar;
Xəzəllər üstündə gəzir turaclar,
Bulaqlar sapsarı yarpaqlanıblar.

**II Aparıcı:** A. Aslanovun şeir dilində şifahi xalq poeziyasının güclü tədrisi özünü hər addımda hiss etdirir. Lakin bir yerdə də görmürük ki, şair bu təsirə qapılsın. Ümumən A. Aslanovun şeirlərində təbiətin, bu gözəlliklər aləminin poetik təsviri xüsusi yer tutur. Bu mövzuda yazılmış "Ağaclar puçurlayır", "Lalələr", "Qızlar və bənövşələr", "Söylə necədirlər?", "Sevirəm Qafqazı mən", "Meşəbəyi", "Bənövşə", "Gül dəstəsi", "Səhər", və digər şeirləri təbii və mənalıdır. Bununla yanaşı şairin qələmində dəfələrlə Azərbaycan vəsv edilir. Azərbaycanın günəşli, aylı, ulduzlu səması ilə güllü-çiçəkli, bağlı-bağatlı çölləri, bərəkətli zəmiləri ilə, Arazı, Kürü, Bakısı, qədim Gəncəsi ilə, o tayı-bu tayı ilə tərənnüm edilir:

Qurban göylərində saysız sayrışan
Sonsuz ulduzların zər naxışına,
Pərişan Arazı Kürə qarışan

Ana torpağının  hər qarışına.

**I Aparıcı :** Poeziyaya kim əzəldən könül verirsə, taleyini onda tapır. Şairlik sonradan qazanılmır, anadan olanda insanın alnına yazılır. Onun üstünə gələn peşə, şöhrət-hamısı poeziyaya tabedir. Şairin gözəl anları ilhamla zəhmətin vəhdətindən doğan şeiriyyətin qələmdən kağıza süzüldüyü anlardır. Onun qəlbi yaradanda yaşayır. Onun poeziyasında zərif lirik başlanğıcın üstünlüyü duyulur. A. Aslanovun bir çox şeirlərinə mahnı bəstələnməsi, o mahnıların illərlə təravətini saxlaması təsadüfü deyil. Təkcə "Lalələr" in uşaqdan böyüyə, saysız ürəklərə hakim olmasını bir daha, xəyalınıza gətirin.

Xəyalımdan nələr, gəlib nə keçər,
Yaz gələr ellərə durnalar köçər.
Bulaqlar samovar, ağ daşlar -şəkər,
Bənzəyir çəməndə közə lalələr.

**II Aparıcı**: Dəyərli qonaqlar, gecənin sonuna gəldik. Deyilənə görə, ömrün mənası müdriklikdə cəmləşir, onda öz tacını tapır. Şairin şeirlərində bu müdriklik aydın nəzərə çarpır. O, həyatda ən böyük mənanı yaratmaqda duyur. Təbiətin qanunu öz hökmünü verəcək. Həyat davam edəcək, dünya yenə gözəlliklər yaradacaq.

...Yerimdə bir ömür açacaq çiçək,
Dünya bir çiçək də gözəlləşəcək.

deyən şair şeirləri sətir-sətir, varaq-varaq oxunduqca yaşayacaq, var olacaq. O çiçəkdən ruhumuzu oxşayan hər bir misra qəlbimizi gözəlləşdirəcək. Qəlbimiz gözəlləşdikcə Aslan Aslanovun əbədiyyətə qovuşan ruhu daim şad olacaqdır.

## Ədəbiyyat siyahısı:

1.Aslan Aslanov. B.: “Uşaq və Gənclər Nəşriyyatı”, 1961.-50 s.
2.Aslan Aslanov. B.: “Yazıçı”,1985.-177 s.

## Dövrü mətbuatda:

1.Əlioğlu Ç. “Nəğməli günlərim”. A. Aslanov. haqqında // Kommunist qəzeti. -1986.
2. Mustafayev C.”Müdriklik çağı”. A. Aslanov. haqqında // Ədəbiyyat və incəsənət qəzeti.-1987.-s.7.
3.Seyidov Y. “Nəğməli günlər”.A. Aslanov. haqqında // Ədəbiyyat və incəsənət qəzeti. -1986.

Aslan Aslanovun 90 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları  üçün hazırlanmış metodik vəsait

Kompyuter yığımı
və dizayn: Aynurə Əliyeva

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz